TEXNONIKOL Korporasiyası
Texniki Dəstək Xidməti +994 50 800 44 11
www.technonicol.com, www.nav.tn.ru/az

Texniki vərəqə № 6.12. 02.2020 tarixli versiya

# TEXNONİKOL mastika №33

TŞ 5775-045-72746455-2010

Normalara müvafiqdir və
Rusiya Federasiyası ərazisində tətbiq edilir

Lateks və polimer modifikatorlarla modifikasiya edilmiş bitumlu su-emulsiya mastikası.




## Məhsulun təsviri:

TEXNONİKOL mastika №33 – lateks və polimer modifikatorlarla modifikasiya edilmiş bitumlu su-emulsiya mastikası. Tərkibində üzvi həlledicilər yoxdur.

## Tətbiq olunma sahəsi:

− mastikalı dam örtüklərinin quraşdırılması;
− inşaat konstruksiyalarının (bünövrələrin, zirzəmilərin, dirəklərin və torpaq altında qalan dirəklərin və yaxud da rütubətli mühitlə təmasda olan digər obyektlərin) hidroizolyasiya müdafiəsi;
− daxili məkanların (vanna otaqlarının, hovuz döşəmələrinin, eyvanların, zirzəmilərin) hidroizolyasiyasının quraşdırılması.
− əllə çəkilmə (diyircəklə və ya fırça ilə);
− mexanikləşdirilmiş çəkilmə, RX-28 və ya analoji qurğu ilə.

Mexaniki çəkilmə üsulunda mastikanı koaqulyant məhlulu ilə birlikdə (QOST 450-77 üzrə hidratlaşdırılmış kalsium xlorid, su məhlulu 10-12%, 25 l suya 4 kq duz) ikikanallı qurğu vasitəsilə koaqulyant məhlulunun mastikaya 1:8 nisbətində olması şərtilə səpmək mümkündür.

Mastikalı dam örtüyünün quraşdırılmasına sərfiyyat – 4,5-5,5 kq/m$^2$, hidroizolyasiyanın quraşdırılması zamanı – 3,5-4,5 kq/m$^2$.

## Əsas fiziki-mexaniki xarakteristikaları:

| Göstəricinin adı | Ölçü vahidi | Meyar | Qiymət | Sınaqlar metodikası |
|---|---|---|---|---|
| Betona birləşmə davamlılığı | ən azı | MPa | 0,6 | QOST 26589-94 |
| Şərti davamlılıq | ən azı | MPa | 0,7 | QOST 26589-94 |
| Parçalanma zamanı nisbi uzanma | ən azı | % | 900 | QOST 26589-94 |
| Çəkiyə görə 24 saat ərzində suhopma | ən çoxu | % | 0,4 | QOST 26589-94 |
| Çəkiyə görə emulqatorla büzücünün miqdarı | həddi | % | 53-65 | QOST 52128-2003 |
| 5 saat ərzində istiliyə davamlılıq | ən azı | °C | 140 | QOST 26589-94 |
| -25°C temperaturda 5,0±0,2 mm radiuslu tirdə elastiklik | - | - | çatlar yoxdur | QOST 26589-94 |
| 0,1MPa təzyiqdə 24 saat ərzində sukeçirməzlik | - | - | dözümlüdür | QOST 26589-94 |

## İstifadə təlimatı:

TexnoNİKOL №33 mastikasının istifadəsi üzrə təlimata əsasən.
Standart şəraitdə mastikanın quruma müddəti «qopmaya» qədər – 1 dəqiqə, səthi quruma – 1-4 saat, bərkimə – 24-72 saat, yekun davamlılığa çatma – 3 sutkadan 7 sutkaya qədər.
Məhsul su əsaslıdır, tərkibində üzvi həlledicilər yoxdur. Dəriyə və gözə düşməsinin qarşısını alın.

## Saxlanılma:

Quru, işıqdan və rütubətdən qorunan yerdə +5 °C-dən +30 °C-dək temperaturda saxlayın.
Zəmanətli saxlanma müddəti – 6 aydır.

## Daşıma:

Mastika bütün nəqliyyat vasitələri ilə qapalı nəqliyyat vasitələrində bir sıra hündürlükdə, bu nəqliyyat növündə qüvvədə olan malların +5 ºC-dən aşağı olmayan bir temperaturda daşınması qaydalarına uyğun olaraq daşınır.

## Qablaşdırma haqqında məlumat:

200 litr həcmli metal çəlləklər.